# Birinci Turan kitab festivalı Bakıda




**Son illər paytaxtımızda mütəmadi olaraq kitab festivallarının təşkili oxucuların, kitabsevərlərin böyük marağına və sevincinə səbəb olur. Bir vaxtlar durğunluq dövrünə şahidlik etdiyimiz bu sahənin dirçəlişini görmək hər birimizi sevindirir. Budəfəki yarmarka xüsusi əhəmiyyət daşıyırdı. Çünki belə geniş əhatəli Bakıda ilk dəfə idi təşkil olunurdu. Üstəlik, Turan adıyla.**

Beləliklə, yanvarın 11-də “Pasaj-1901” sərgi salonunda "Çapar yayınları" nəşriyyatının təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, DOST Agentliyinin, Yunus Əmrə İnstitutu Bakı mərkəzinin təşkilatı və facemark.az saytının informasiya dəstəyi ilə "I Turan Kitab Festivalı" öz işinə başladı. Tədbir 5 gün davam edəcək.

Sərgi salonuna daxil olar-olmaz festivalda kifayət qədər kitab mağazaları, nəşr evləri və eyni zamanda şəxsi əl işlərinin sərgilənməsi diqqətimizi cəlb etdi. Kitabların insanlar tərəfindən bu qədər sevilməsi həqiqətən xoş və ürəkaçan mənzərə idi. Tanınmış əcnəbi müəlliflərin Azərbaycan dilində, nəfis tərtibatlı tərcümələri də göz oxşayırdı.

"Çapar yayınları"nın təqdim etdiyi guşəyə yaxınlaşıb yüksək dizaynla çap olunmuş, tarixi mövzulara işıq salan kitabları nəzərdən keçirmək istədik. Sözügedən nəşriyyatın baş redaktoru,



tədqiqatçı Dilqəm Əhməd bizi qarşıladı və çap məhsulları barədə məlumat verməyə başladı. O bildirdi ki, adında böyük birliyimizi simvolizə edən Turan festivalında əsas məqsəd, ilk növbədə, kitabın təbliğidir. Qoy, insanlarımız daha mütaliəli, savadlı, mütərəqqi olsunlar. Son zamanlar ölkəmizdə bu sahədə bir neçə festival keçirilsə də, düşündük ki, bu işi daha geniş şəkildə davam etdirmək lazımdır. 2023-cü il, əslində, önəmli bir tarixdir. Çünki bu il Türkiyə Cümhuriyyətinin 100 illiyidir. Eyni zamanda Türk Dövlətləri Təşkilatında son zamanlar gedən birləşmə, yekdil qərarlar bizdə Türk dünyasının gələcəyi ilə bağlı nikbin ovqat yaradır. Ona görə adın Turan qoyulması da təsadüfi deyildir. İnanırıq ki, ötən əsrin sonlarında deyilən “XXI əsr–Türk əsridir” kəlamı özünü doğruldacaq və biz də bu prosesə mədəniyyət sahəsində dəstək olmağı düşündük. Azərbaycan-Türkiyə, digər Orta Asiya ölkələrindən də qonaqların gəlməsini istəyirdik. Hələlik Türkiyədən qatılanlar var və hörmətli alim İlyas Topsakal, sonra İmadəddin Nəsimi barədə roman yazan Çinar Ata iştirak edəcək. Cəmiyyətimizdə kitaba marağın getdikcə artmasına xidmət edəcək bu festivalın təşkilatçılarından Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıçın fikirlərini öyrəndik. Onun dediyinə görə, festivalda 40-a yaxın nəşriyyat, 20-yə yaxın kitab mağazası iştirak edəcək. Bundan əlavə, festival günlərində kitab təqdimatları, imza tədbirləri, qiraət saatları, mühazirələr olacaq, müəlliflərlə görüşlər keçiriləcək. Həm də xarici qonaqlarla eksklüziv görüşlər, alimlərlə diskussiyalar, zəngin proqram 2023-cü ilin ilk kitab bayramında oxucunun vaxtını səmərəli keçirməsinə də kömək edəcək.

“Çapar yayınları”nın təsisçisi Yusif İlhamoğlu öz təəssüratlarını bizimlə bölüşdü. O, sərgi mərkəzində müəllif masalarının hazırlandığını və uşaqlar üçün ustad dərslərinin təşkil olunacağını bildirdi: “Bütövlükdə festivalın əhəmiyyəti çox böyükdür. Kitab bir dəyərdir, onu yaşatmaq, təbliğ etmək müasir informasiya axınında nə qədər çətin görünsə də, bir o qədər zəruridir. “Libraf” nəşriyyatının əməkdaşı İlkin Abdulla da festivalın təşkilinin oxuculara müsbət təsir edəcəyini, onların bundan daha yaxşı bəhrələnəcəyini düşündüyünü söylədi.

İştirakçılardan Yaqut Abdulǝliyeva festivalda imkansız ailələrin əl işlərinin sərgiləndiyini və buradan gələn gəlirlərin onların qayğılarının həllinə yönəldiləcəyini bildirdi.

**Təqdim etdi:**
**Anar TURAN,**
**Gülnar HƏSƏNOVA,**
**Elşən AĞALAR (foto),**
**“Xalq qəzeti”**